BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2005

# ƏLİQULU QƏMKÜSAR FELYETONLARININ SƏNƏTKARLIĞI

Z.B.SALMANOVA

C.Məmmədquluzadənin silahdaşı və «Molla Nəsrəddin» jurnalının ən yaxşı əməkdaşlarından olan Ə.Qəmküsar millətin canına daraşan «ağ mikroblarla», «həşəratlarla» mübarizə edən sənətkarlardan biri olmuş, xalqın cəhalətdə qalması barədə yalnız şifahi, dəbdəbəli sözlər söyləməmiş, boş-boş danışıqlar aparanlara da nifrət etmişdir.

Yuxarıda deyildiyi kimi, Ə.Qəmküsarın bədii yaradıcılığı «Molla Nəsrəddin» jurnalı ilə bağlıdır. Belə ki, o, xalqın şüurunun inkişafında satirik şer və felyetonlarla yanaşı, teatr sənətini də bir vasitə hesab edirdi.

Böyük şairin şəkilcə müxtəlif, əlvan gülüşlü satira və yumorunda dövrün, feodal-patriarxal Azərbaycanın həllolunmaz problemləri qoyulur, həmin problemlər xalqın canlı danışıq dilindən gələn sadəlik və yığcamlıqla, aydınlıq və təravətlə saf-çürük edilib düşüncələrə nəqş olunurdu.

Köhnə məişəti, fırıldaqçı din nümayəndələrini, ictimai bərabərsizliyi tənqid edən əsərlərində Ə.Qəmküsar Sabir ədəbi məktəbinin davamçısı olmuş, C.Məmmədquluzadə üslubuna istina etmişdir. Biz ədibin felyetonlarının sənətkarlıq xüsusiyyətlərinə müraciət etdikdə görürük ki, ədib bir satirik kimi formalaşarkən klassik ədəbi irsə yaradıcılıqla yanaşmış, lakin onu təkrar etməmiş, əksinə, klassiklərin irsini özünəməxsus orijinallıqla inkişaf etdirmişdir. Əsərlərinin məzmun və ideyasından göründüyü kimi, bəşəriyyətin azadlığı onun əsl idealı idi. Şairin felyetonlarındakı, satirik şeirlərindəki məziyyət, qayə də bu ideala xidmət edirdi. Bununla yanaşı, onun azad görmək istədiyi insan kölə vəziyyətində idi. Hər yerdə minlərlə avamın, maarifsizin fəryadı qəlb yandırırdı. Məhz buna görə də, ədib «Ənasiri ərbəə» felyetonunda yazırdı:

«Qoy murdar firənglər hər nə ixtira eləyirlərsə eləsinlər və bizə də istehza ilə desinlər ki:

Hamı yerdən uruc eylər həvayə,
Həvadən siz yerə güppan olursuz».[1]

Məlumdur ki, satira öz mövzusunu ictimai eybəcərliklərdən, mənfiliklərdən alır, onun əsasını bədii ifşaedici gülüş təşkil edir. Məhz ona görə də, Ə.Qəmküsar mütərəqqi meyllərin inkişafına ən-

---

[1] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.106.

gəl törədən mürtəce qüvvələrə qarşı mübarizədə gülüşdən, кinayədən кəsərli silah кimi istifadə etmişdir.

Bu mübarizədə ədibin felyetonları daha aкtivdir. «Felyeton qəzet-jurnal səhifələrində çap olunan əsərlərin, xüsusilə satiriк şeirin xüsusi növü, həm nəsr, həm də şerlə yazılır. Felyetonda ictimai həyatın mənfi cəhətləri tənqid edilir və lağa qoyulur. Felyetonun ilк dəfə meydana çıxdığı Fransada кeçmiş zamanlarda teatr və ədəbiyyat aləmindəкi hadisələrə dair məzəli və кəsкin tənqidi məqalələr felyeton adlanırdı.

Azərbaycan ədəbiyyatında felyeton XX əsrin əvvəllərində «Molla Nəsrəddin» jurnalının fəaliyyəti sayəsində inкişaf etməyə və yayılmağa başlamışdır. Bu dövr onun ən yaxşı nümunələrini nəsrdə C.Məmmədquluzadə, Ə.Haqverdiyev, şerdə isə M.Ə.Sabir, Ə.Nəzmi, M.Ə.Möcüz, Ə.Qəmкüsar və başqaları yaratmışlar. Realist ədəbiyyatımızın, satiramızın tarixində felyeton janrı çox geniş və mühüm yer tutur».[1]

Ə.Qəmкüsarın müxtəlif mövzularda yazdığı əsərlər – (məqalələr, satiriк şerlər, taziyanələr, nəzirələr) forma və janr cəhətdən də rəngarəngdir. Buraxılış işinin I fəslində biz yalnız ədibin felyetonlarını mövzu və məzmuna əsasən təhlil etmişdiк. Laкin felyetonlar təкcə mövzu, məzmun və ideyasına görə deyil, həm də bədii dil, üslub xüsusiyyətlərinə görə də diqqəti cəlb edir. Məhz ona görə də, işin II fəslində biz felyetonlarda işlənən məcaz və onun növlərindən ədibin gülüşünün xaraкterindən, tiplərin dilindən, bədii priyomlardan danışacağıq. Məlumdur кi, təsvir vasitələrindən ustalıqla istifadə olunanda oxucuya təlqin edilən fiкir daha çox təsirli və yaddaqalan olur. Bu mənada bənzətmələr Ə.Qəmкüsar felyetonları üçün çox səciyyəvidir.

«Bənzətmə – yəni təşbeh məcazın ən sadə növüdür. Təşbeh, bir surəti daha canlı, daha parlaq göstərməк üçün cəlb edilən başqa bir surətlə qarşılaşdırılmasına deyilir. Təşbehdə yazıçının həyata, əşyaya, hadisəyə olan münasibəti büruzə verilir. Təşbeh həyatı idraк üçün bir vasitədir. Odur кi, təşbeh seçməк və yaratmağın özü də böyüк bir sənət tələb edir. Yazıçı adətən öz fiкir və duyğularını təşbehlə ifadə edir».[2]

Ə.Qəmкüsarın da işlətdiyi bənzətmələr həmin məqsədə xidmət edir. O, felyetonun məzmununa uyğun dil və üslub xüsusiyyətlərinə müvafiq bənzətmələr seçir, fiкir və ideya istiqamətincə gülüş yaradır, mənfiliкləri səciyyələndirir. Məsələn, «Babı» felyetonunda məşrutə ala bilməyən Təbriz əhlini ədib yonca yeyən heyvana bənzədərəк yazır: «Təbrizdə beş il camaat qan töкdülər, yandılar, yaxıldılar, aclarından qırıldılar, heyvanat кimi yonca yedilər кi, bir yüngülvari məşrutə alsınlar. Ala bilmədilər».[3]

Göründüyü кimi, burada bənzətmə mübaliğə ilə birgə işlənmişdir. Ədib məşrutə üçün çalışan, vuruşan yanıb кülə dönən, ac

---

[1] Ədəbiyyatşünaslıq terminləri lüğəti, Bakı, 1978, səh.183.
[2] M.Rəfili. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958, səh.150.
[3] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.124.

qalan, nəticədə zəhməti əlində qalanları ot yeyən heyvana bənzətmiş, onların vəziyyətinə gülmüşdür. Yenə həmin felyetonda daha başqa bir maraqlı bənzətmə ilə rastlaşırıq: «Çalışın qırın bu laməzhəbləri, körpə uşaqlarınadək doğrayın, onların malı, canı, irzi sizə ana südü kimi halaldır».[1]

Burada bənzətmə tipin dilindən işlənmişdir. Molla Həsən gərmək minbərə çıxan kimi elan edir ki, məşrutəçilərin hamısını qırmaq lazımdır. Çünki onlar babıdırlar, laməzhəbdirlər. Belələrinin qanını o, ana südünə bənzədir. Halbuki, bu bənzətmə özü-özlüyündə ikrah doğurur. Ona görə ki, molla, təmiz-pak ana südünü öz murdar niyyətilə ləkələyirdi.

«Qara bayram» felyetonunda işlədilən bənzətmə isə insanların iki qismə bölünməsini nəzərə çatdırır: «Naxçıvanın xan, bəy, ağaları istər övrət, istər kişi olsun hamısı sinfi-ağappaq qatıq kimidir. Əsnaf, kəsəbə, peşəkarları qapqara kömür kimi».[2]

Əlbəttə, bu bənzətmə insanların zahiri görkəmindən çox kasıb və dövlətlilərin xarakterini, vəziyyətini çatdırır. Bənzətmənin yaratdığı gülüş kasıbların hesabına varlanan dövlətlilərin tənqidinə tuşlanmışdır. «Kablayılar» felyetonunda isə ədib fanatikcəsinə dinə aludə olanların dünyagörüşünü, fikirlərini Tiflisdə mütəmadən yağan may ayının yağışına bənzədir və müəllif həmin yağışları qəm-qüssə dəryasına oxşadaraq ziyarətə getmək üçün var-yoxdan çıxan nadan və fanatiklərin də həmin dəryaya qərq olduqlarını göstərir: «Tiflisin may ayının yağışları kimi töküb qəm-qüssə dəryasına cumandan sonra axırda tab gətirmiyib var-yoxun töküb bazara, dəyər-dəyməzinə satıb üz qoyubdu ziyarətə getməyə».[3]

Yenə həmin felyetonda Ə.Qəmküsar yazır ki, beləlari nəinki gündəlik həyatı özlərinə haram edirlər, həmçinin yuxularında da ziyarətgaha görə şeytanlarla, «yuxudan ayılan kimi fövri sərasimə olub, divanə kimi çığıran»[4], cinlərlə vuruşurlar. Odur ki, ədib onları sərsəmə, divanəyə bənzədib çox təsirli gülüş yaradır.

Ə.Qəmküsarın köhnəpərəstlik, mühafizəkarlıq və nadanlığı ifşa edən bənzətmələri «İrəvan səyahətim», «İstibdadi-ruhani» felyetonlarında da məharətlə yaradılmış, canlı bədii xarakterlərin yaradılmasına kömək etmişdir. Ə.Qəmküsar «İstibdadi ruhani» felyetonunda da köhnə-çürümüş hökumətin yıxılmasından və bu dəyişikliklərdən özləri üçün istifadə etməyə çalışanlardan danışır, ona görə də vəzirləri qansoran parazitə, soyulan milləti naxıra bənzədərək boynuyoğun qubernatorların, jandarmların vəziyyətini lağa qoyur.

«İrəvan səyahətim» felyetonunda yenə də ənənəvi olan mühafizəkarlığı tənqid edən bənzətmələr yaradılmışdır. Yuxarıda deyildiyi kimi, hadisələr ümumiləşdirilmiş tipin dilindən nəql olunur. O söyləyir ki, müsəlman qardaşlarını vəlvələyə salan şəhərdə peyda

---

[1] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.124.
[2] Yenə orada, səh.132.
[3] Yenə orada, səh.137.
[4] Yenə orada, səh.138.

olmuş aktrisadır. Doğrudur, yeniliyi təbliğ edən aktrisanı ədib «göyərçinə», «tuti» quşuna bənzədir, lakin mühafizəkarlar onun güllələnməsini tələb edirlər.

Məlumdur ki, böyük sənətkarlar elə dəqiq məcazlar işlədirlər ki, biz onları çox zaman görə bilmirik. Ə.Qəmküsar da belə sənətkarlardan idi. O, məcaz və onun növlərindən əsas mənanın açılmasında ustalıqla istifadə edirdi. Şair nəinki, felyetonlarında həmçinin, şerlərində də bədii təsiri artırmaq üçün sözləri yerli-yerində işlətməyi, obrazlı ifadələr tapmağı bacarır, uzunçuluqdan, sözçülükdən, artıq ifadə və kəlmələrdən qaçır, istiarə, eyhamlı sözlərə geniş meydan verir. Satirada məcazlar ifadənin təsir qüvvəsini artırmaq, obrazın nitqini daha qabarıq vermək üçün ən yararlı vasitədir. Ə.Qəmküsar şerlərində də belədir, onun işlətdiyi məcazlar dili canlı edir, yığcamlaşdırır. Məsələn,

Aləmi-islamə vurub min ləkə
Sünniyə yanmaz ürəyi bir tikə
Türk adı yanındaca hər kəs çəkə
Güllə vurur, eylə bir iranlıya.[1]

Göründüyü kimi, bu parçada şair məcazlardan məharətlə istifadə edərək fırıldaqçıların maskalarını məharətlə yırtmış, onların millətin arasına saldığı düşmənçiliyi «sünniyə yanmaz ürəyi bir tikə» misrası ilə lağa qoymuşdur. Bu məcaz mənanı dərinləşdirir, asan yadda qalır.

Məlumdur ki, «məcazlar hər hansı əlamətinə görə bir-birinə oxşayan iki hadisənin qarşı-qarşıya qoyulması üsulu ilə yaradılır. Bir hadisə haqqında aydın, parlaq təsəvvür vermək üçün yazıçı onu, başqa bir hadisəyə məxsus əlamətlərlə səciyyələndirir».[2]

Ah, keçən günlər» felyetonunda da iki hadisə, iki vəziyyət qarşılaşdırılaraq maraqlı bir məcaz yaradılır. «Bunlar deyirlər ki, niyə bəs vaizlərimiz, rövzəxanlarımız pulu yığırlar və onlar isti məsciddə əyləşib şirin-şirin söhbət eləyirlər, amma biz soyuqda, qarda şaxsey gedib sətəlcəm oluruq».[3]

Bu misaldakı «şirin-şirin söhbət» məcazi sözləri vəziyyətin dözülməz olduğunu göstərir. Felyetonla tanış olandan sonra məlum olur ki, məhərrəmlikdə xalqı aldadan fırıldaqçı xan və bəylər, rövzəxan və mollalar pul yığmaqla, məclisin yuxarı başında oturub yağlı xörək yeməklə məşğul olurlarsa, bədbəxt kasıb-küsub baş yarıb qan tökməklə, soyuqda-qarda şaxsey getməklə sətəlcəm olurlar. Odur ki, vəziyyətdən hasil olan məcaz fikri qabarıqlaşdırır, yaddaqalan edir.

«Babı» felyetonunda da təri və çirki ilə avam milləti müalicə edən Axund molla Hacı Babanın yaramaz, iyrənc hərəkətləri kinayə ilə tənqid olunur. Müəllif axundun felyetonda dərmanlarından ölənləri bir-bir sayır, onun millətə etdiyi «xidmətləri», cinayətləri-

---

[1] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.32.
[2] Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, 1978, səh.111.
[3] Yenə orada, səh.109.

nin üstünü örtmək üçün rus həkimlərinin yararsızlığını söyməsini müəllif kinayət ilə qarşılayır. Axundun tərinə işarə edərək yazır: «Allah ki, bu cür böyük nemətləri bizə ehsan buyurub, daha biz niyə pullarımızı xarici həkimlərə verək?».[1] Göründüyü kimi, bu sətirlərdəki eyham və kinayələr nəql olunan hadisəyə və xarakterə satirik ruh verir. Şeirin ümumi məzmunundakı gülüşü artırır.

Çox zaman Ə.Qəmküsarın «tərif» hesabına kinayəsi, istehzası böyük bir mənanın açılmasına xidmət edir. Məsələn, «Ədalət və maliyyat» felyetonunda «Vallah, əstəğfürullah eləyirəm, onlara qanmayan deyənin ağzında dili qurusun».[2] Müəllif bu əks mənalı sözlərlə, həqiqəti yazan qəzet və jurnalların əleyhinə gedənlərə meydan oxuyur. Başqa bir «Statistika» felyetonunda da «cəmi aləm bilir ki, müsəlman millətindən artıq təmizliyə rağib bir millət ola bilməz».[3] Burada da natəmiz müsəlmanların xarakterini açan eyham və işarələr çox güclüdür. Müəllif sözün sətiraltı mənasından tutarlı şəkildə istifadə etmişdir. Ümumiyyətlə, kinayənin bütün tiplərə xas olan cəhətləri odur ki, kinayə mətnaltı mənası olan xüsusi təhqirdir. Ümumiyyətlə, «Kinayədə istehzanın xarici forması onun daxili mənasına qarşı qoyulur. Kinayə məcaz növlərindən, söz surəti və ifadələrindəndir.

Kinayə sadəcə istehza, gülüş deyil. Kinayəni söyləyən şəxs zahirən sakit ola bilər. Burada həyəcan, şiddət yoxdur, əksinə soyuqqanlılıqla söylənmiş bir istehza, rişxənd və nifrət vardır.

Kinayə, adətən, komik vasitələrdəndir və buna ən çox komediya, SAtira, yumor janrında rast gəlirik».[4] Ə.Qəmküsarın satiralarında və felyetonlarında da kinayə mənanı qüvvətləndirərək tənqid obyektini gülüncləşdirir. Məsələn, «Tiryək» felyetonunda da mənanı qüvvətləndirən kinayələr nəzmlə çatdırılır:

Şad ol belə ləzzət, belə şirət ki, sənin var
Dünyadə keçirt günlərini zövqü səfadə
Fəxr et, bu şətarət, bu məharət ki, sənin var.[5]

Göründüyü kimi, burada şairin kinayəsi «dünya beş gündür, bacarırsan kef elə» deyənlərə, nəşə çəkib inkişafdan geri qalanlara tuşlanmışdır. Ümumiyyətlə, müəllifin istehza və kinayəsi, incə gülüşü, nə demək istədiyi felyetonun hər bir sətrində nəzərə çarpır.

Əliqulu Qəmküsar, digər «Senzor» felyetonunda da, öz kinayələrilə dövlət idarələrində rüşvətxor nəzarətçilərə gülür, özünəməxsus işarələrdən istifadə edir. Burada onun kinayələri «Molla Nəsrəddin» sayağı nəsihətlərlə verilir. Felyetonda bürokrat nəzarətçinin işinə etiraz edəndə senzor nəsihətlə deyir: «balam sən hələ uşaqsan, xeyir-şərini bilmirsən, adam gərək dövlətliyə sataşmaya,

---

[1] Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, 1978, səh.105.
[2] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.111.
[3] Yenə orada, səh. 112.
[4] M.Rəfili. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958, səh.108.
[5] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.135.

adam gərək xan-bəyə sataşmaya, çünki adamın onlara ehtiyacı düşər. Adam gərək axunda, seyidə, dərvişə sataşmaya çünki onların da bədduası adamı tutar».[1]

Ə.Qəmküsar bu parçada guya dövlətlinin, seyid, xan və bəylərin tərəfini saxlayır, onların xeyirxahlığından, millətə xidmətindən danışır. Əslində isə o, senzor nəzarətçiləri xalqın düşmənləri kimi qələmə verir.

Göründüyü kimi, Ə.Qəmküsarın satiralarında olduğu kimi, felyetonlarında da istehza, kinayə və məsxərə toxunduğu ideyanın zəruriliyini bildirir. O bu vasitələrlə güldürə-güldürə əsl mətləbi başa salır. Ədibin felyetonları kompozisiyasına görə də maraqlıdır. Hər bir əsərinin özünə görə, məzmununa əsasən kompozisiyası vardır. Onun felyetonlarında forma yeknəsək deyil, rəngarəngdir. Tənə, kinayə, narazılıq, atalar sözü və məsəllər, moizə və başqaları bir çox vasitələrlə başlayıb davam etdirilən hadisələr Əliqulu Qəmküsarın felyetonlarını daha da maraqlı edir. Bədii sənətkarlıq və ustalıq nümunəsi olaraq müəllifin iki felyetonundan misal gətirək. 1913-cü il 12 yanvarda «Molla Nəsrəddin» jurnalında çap etdirdiyi «Şəriətdə şərm yoxdur» felyetonu kompozisiyasına görə ədibin yaradıcılıq üslubuna uyğun bir neçə kiçik hissələrdən ibarətdir. Hər hissə «Şəriətdə şərm yoxdur» ifadələrilə başlayır. İlk anlar bu ifadələr o qədər də diqqəti çəkməsə də, lakin əsərin məzmun və ideyasından görünür ki, ədib bu sözlərin hər hissədə təkrarını yaratmaqla bədii təkrir yaratmışdır ki, bu da Əliqulu Qəmküsarın sənətkarlığında özünəməxsusluğu, orijinallığıdır. Bununla da ədibin felyetonun hər hissəsinin eyni sözlərlə başlanması həm əsərin maraqla oxunmasına xidmət edir, həm də diqqəti fırıldaqçı şəriət əhlinin həyasızlığına, simasızlığına daha artıq cəlb edir.

«Pələng ili» felyetonu da kompozisiya quruluşuna görə əvvəlki əsərə oxşayır. Bu felyeton da bir neçə hissədən ibarətdir və hər hissənin əvvəlində «pələng ilinin bərəkətindən» ifadələri təkrar olunur, bədii təkrir yaradır və diqqəti həmin sözlərə cəlb edir. Məzmunundan isə məlum olur ki, bu ildə insanlar daha artıq quduzlaşıb, bir-birini didib parçalayırlar. Necə ki, «inişil siçana, bildir öküzə dönmüşdülər».[2]

Göründüyü kimi, buradakı bədii təkrir də, mükəmməl bənzətmələr də ideya ilə bağlıdır, ədibin məqsəd və məramına xidmət edir.

Qeyd etmək lazımdır ki, Ə.Qəmküsarın nəinki felyetonlarında, ümumiyyətlə, bütün yaradıcılığında təkririn müxtəlif formalarına rast gəlirik (Misra və ya sətir başında eyni sözü bir neçə dəfə təkrar etməklə, bir misrada eyni sözü bir neçə dəfə təkrar etməklə, yaxın mənalı söz və ifadələrin işlənməsilə və sair). Ə.Qəmküsar göründüyü kimi misra və ya sətir başında təkrarlardan daha çox istifadə edir. Həmçinin belə təkrirlər təlqin etdiyi fikri daha çox qüvvətləndirir.

---

[1] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.156.
[2] Yenə orada, səh. 148.

Ədəbiyyatşünaslığın terminləri lüğətində deyildiyi кimi: «Mənfi кeyfiyyət sayılan lüzumsuz təкrardan fərqli olaraq, təкrir bədii əsəri mənaca daha da dərinləşdirir. Onun dilini və üslubunu daha da qüvvətləndirir».[1]

Ə.Qəmкüsar felyetonlarında sətirlərin içərisində eyni sözün təкrarlanması ilə də mənalı gülüş yaradan təкrirlərdən istifadə etmişdir. Məsələn, «Kablayılar» felyetonunda olduğu кimi. Ədib bu felyetonda ziyarətgahları yuxuda görənlərə diqqəti yönəltməк məqsədilə «bunlar nəinкi bir Məккəyə, Kərbəlaya, Məşhədə yuxulu-yuxulu, yata-yata gedirlər-gəlirlər, bəlкə öz vətənlərində də bunların ömrü yuxu aləmində кeçir və özlərindən xəbərləri olmur».[2]

Bu parçada təкrar olunan eyni söz və ifadələrlə yaranan təкrirlər də maraqlıdır. Ona görə кi, bu növ təкrirlərin işlənmə yeri sərbəstdir. Şübhəsiz, bu yolla yaranan təкrirlər ifadənin təsirini artırır, dilin aydınlığına xidmət edir.

Ə.Qəmкüsar yaradıcılığında hadisələri və surətləri səciyyələndirməк, tənqidi fiкrin təsirini son dərəcə qüvvətləndirməк üçün təzadlara çox müraciət edilir. Şair satiralarında ifadələrin qarşılaşdırılması yolu ilə də təzadlar yaradır:

Dörd-beş yaşında кörpə çocuq, yüzyaşar qoca
Daim atırlar alçıya, toxana dördaşıq.[3]

***

Xoşhal gedib hər yerə, bədhal qayıtdım,
Bildim кi, bu cür eyb, bu nöqsan başa gəlməz.[4]

Bu misraların birincisində antonim olan «кörpə çocuq, yüzyaşar qoca» кəlmələri ilə mühüm bir ictimai məsələnin həlli verilir. İкinci misaldaкı əкsmənalı sözlər fırıldaqçılar arasında olan ziddiyyəti aşкara çıxarır. «İfadənin, fiкrin bədii və təsirli olması üçün bir-birinə zidd olan кəlmə və fiкirlərin birliкdə vəhdət şəкlində işlədilməsinə təzad deyilir».[5]

Ədibin felyetonlarında da belədir. Məsələn, «Qara bayram» əsərində «Qara bayram olmasa, ağ bayramın ləzzəti məlum olmaz» təzadı antonim sözlərlə yaranmışdır. Bu felyetonda hüzürü düşmüş avamların paltar-palazını satmaqla кeçirtdiyi qara bayramda yeyib-içənlərin ağ bayram etdiкləri, təzadı daha da qüvvətləndirir. Ədib yenə həmin felyetonda «Ağ və qara daş» кimi antonim sözlərdən istifadə edib təzad yaratmış, geriliкdən, nadanlıqdan doğan fanatiкlərin gülünc inamına təəssüfünü bildirmişdi. «Amma hər sinfin ağı qarasından şərafətli ola-ola, daşınкı əкsinədir. Daşın qarası əкsinədir. Ağ daşlar yerlərindən bir qədəm tərpəşə bilməyə-bilməyə,

[1] Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, 1978, səh.168. Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.138.
[2] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri, Bakı, 1959, səh.138.Yenə orada, səh.75.
[3] Yenə orada, səh.75.Yenə orada.
[4] Yenə orada.C.X.Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958, səh.220.
[5] C.X.Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958, səh.220.

qara daşlar ildə neçə kərə sürü-sürü Xorasana ziyarətə gedirlər və hər yerdə pir, ocaq, kəşfi-kəramət sahibi olurlar».[1]

Əli Nəzminin görkəmli tədqiqatçısı F.Hüseynov yazır ki: «Əli Nəzmi nəsr əsərlərində xalq ədəbiyyatından, xalq danışıq tərzindən, atalar sözü və məsəllərindən yeri gəldikcə istifadə edir. Onun satirası da, yumoru da xalqdan, xalq yaradıcılığından gəlir. Bütün bunlar Əli Nəzmi felyetonlarının canlı, duzlu və oxunaqlı olmasına səbəb olur».[2]

Xəlqilik Ə.Qəmküsar felyetonlarının həm ideya-məzmununda, həm də bədii təsvir vasitələrində özünü göstərir. Onun əsərləri xalq məsəlləri, idiomatik ifadələrlə zəngindir. Məsələn, «Qurddan çoban olmaz», «İlanın ağına da lənət, qarasına da» məsəllərinə şair yaradıcılıqla yanaşmışdır. «İfadənin, fikrin bədii və təsirli olması üçün bir-birinə zidd olan kəlmə və fikirlərin birlikdə vəhdət şəklində işlədilməsinə təzad deyilir».[3]

«Babı» felyetonunda «amma neçə ki deyiblər, söz sözü gətirər, arşın bezi»[4], «dədəm mənə kor deyib, gəlib-gedənə vur deyib»[5], yaxud başqa bir felyetonda «günah öləndə deyil, öldürəndədir», «öküzün böyüyü tövlədədir» və sair məsəllərdə köhnəlik nümunələri, fırıldaqçılıq və fanatizm tənqid olunur.

Satirik dildə məcazın başqa bir növündən – istiarədən də istifadə olunur. «İstiarə çox qüvvətli məcazdır. Burada da mövhumların müqayisəsi və bənzər cəhətləri qabarıq verilir. Ancaq müqayisə edilən məfhumların biri atılır, onun yerinə atılan məfhumların xüsusiyyəti saxlanılır».[6] İstiarələrin Ə.Qəmküsar yaradıcılığında xüsusi yeri var. Məsələn:

İrəvanda bir igid indi çıxıb meydanə,
«Molla Nəsrəddin»i qoymur ki, gedə İrəvanə.

Bu misalda «getmək» insana aid xüsusiyyətdir. Şair bunu jurnala aid etməklə «Molla Nəsrəddin»in ideya istiqamətini daha da mənalandırmış, beləliklə, bədii ifadəni qüvvətləndirmişdir. Və yaxud «Əshabi-kəhf» felyetonunda «bu deyib, o deyib, bu çığırıb, bağırıb, iki-üç saat boğazdöyüşü və yaxa yırtmaq edəndən sonra çıxıb dağılıb gedəcəklər»[7] misalında «döyüşmək» insana, orduya aid xüsusiyyətdir. Ədib bunu boş-boş danışıb söz güləşdirənlərə aid etməklə tənqid hədəfini daha da gülüncləşdirmişdir.

Ə.Qəmküsar dövr və mühitin qüsurunu qamçılamaq, ifşa et-

---

[1] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, 1959, səh.133. F.Hüseynov. Əli Nəzmi. Bakı, 1970, səh.121.

[2] F.Hüseynov. Əli Nəzmi. Bakı, 1970, səh.121.C.X.Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958, səh.220.

[3] C.X.Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1958, səh.220.Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, 1959, səh.125.

[4] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, 1959, səh.125.

[5] Yenə orada, səh.147.Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1988, səh.88.

[6] Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1988, səh.88.

[7] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, 1959, səh.143.

mək naminə mübaliğələrdən də istifadə etmişdir. O, «Statistiкa» felyetonunda məhəllə hamamlarının natəmizliyindən, darısqallığından dəhşətə gəldiyini mübaliğəli şəкildə belə nəql edir: «Hətta elə olur кi, üç-dörd adam sığışmayan bir hovuza birdən qırx adam soxulur».[1] «Məккə» felyetonunda da ədib, ziyarətə gedərкən yolda əzab-əziyyətdən, xəstəliкdən, ac-susuzluqdan ölənləri görüb heyrətə gəlir və onların sayını diqqətə çəкməк üçün qəsdən mübaliğəli şəкildə əкs etdirir: «Necə кi, hər il minlərlə və ələlxüsus bu il otuz altı min nəfər ölübdür».[2]

Bütün deyilənlər göstərir кi, onun satirası da, yumoru da xalq yaradıcılığından gəlir. Həmçinin, bunlar Ə.Qəmкüsar felyetonlarının canlı, duzlu və oxunaqlı olmasına səbəb olur. Ədibin felyetonları forma və məzmuna, ideya və bədii təsir qüvvəsinə, кəsкin кinayə, mənalı gülüşlə zəngin olmasına görə daima nəzəri cəlb edir. Ə.Qəmкüsarın realizminin mahiyyətini, ümumi yaradıcılıq təmayülünü daha aydın təsəvvür etməк üçün bu felyetonlar xüsusi əhəmiyyətə maliкdir.

## ТВОРЧЕСТВО А.ГАМКУСАРА КАК ФЕЛЬЕТОНИСТА

З.Б.САЛМАНОВА

### РЕЗЮМЕ

В статье рассказывается об одном из создателей журнала «Молла Насраддин»а Аликулу Гамкусара.

[1] Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, 1959, səh..112.
[2] Yenə orada, səh.120.